

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 27 may 2026-cı il №36 (3038) https://mod.gov.az Qiyməti 30 qəpik


## Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Sizi və Azərbaycanın hüdudlarından kənarda yaşayan bütün soydaşlarımızı müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzularımı yetirirəm.

İslamın sonuncu səmavi din və mənəvi-əxlaqi qurtuluş yolu olaraq bəşəriyyətə göndərilməsini təcəssüm etdirən Qurban bayramı günlərində milyonlarla müsəlman Həcc ziyarətində bir araya gəlir, birlik və bərabərliyin, nəcib amallar uğrunda hər cür fədakarlığa hazır olmanın qürur və sevincini yaşayır.

Hər il ölkəmizdə ümumxalq bayramı kimi qeyd olunan Qurban mərasimləri insanlar arasında həmrəylik, humanizm və mərhəmət duyğularını daha da gücləndirir, cəmiyyətimizdə milli-mənəvi dəyərlərə bağlılığın, xeyirxah əməllərin təntənəsinə çevrilir.

Əziz bacı və qardaşlarım!

Bu mübarək günlərdə şəhidlərimizin ölməz xatirəsini bir daha minnətdarlıqla yad edir, xalqımızın və dövlətimizin əmin-amanlığı naminə etdiyiniz duaların Tanrı dərgahında qəbul olunması diləyi ilə ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi və bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 26 may 2026-cı il

## Prezident İlham Əliyevin sosial media hesablarında Qurban bayramı ilə bağlı paylaşım edilib




Azərbaycan Prezidenti İlham Əliyevin sosial media hesablarında Qurban bayramı münasibətilə paylaşım edilib.

AZƏRTAC paylaşımı təqdim edir.

## Birinci vitse-prezident Mehriban Əliyeva Qurban bayramı münasibətilə paylaşım edib




Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Qurban bayramı münasibətilə sosial media hesablarında paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Allah hər kəsin dua və diləklərini, qurbanlarını qəbul etsin".

## Müstəqillikdən Zəfərə aparan yol



*Azadlıq uğrunda qazanılan hər zəfərin arxasında böyük mübarizə və sarsılmaz iradə dayanır. 1918-ci il mayın 28-i isə Azərbaycan xalqının əsrlər boyu yaşatdığı istiqlal amalının gerçəyə çevrildiyi tarixi gündür. O gün bir xalqın öz müqəddəratını ələ alması, dünyaya müstəqil bir dövlət kimi qatılması haqqında rəsmi elan verildi. Bu elan - Azərbaycan Xalq Cümhuriyyətinin yaranması yalnız siyasi bir hadisə deyildi, eyni zamanda, çoxəsrlik müstəmləkəçilik zülmünə qarşı qazanılmış mənəvi Zəfər idi.*

Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqinin tarixində ilk demokratik respublika olmaqla, yalnız bölgə üçün deyil, bütün müsəlman dünyası üçün bir işıq mənbəyinə çevrildi. Qadınlara seçki hüququ tanıyan, müstəqil ordu yaradan bu dövlət, qısa ömrünə baxmayaraq Azərbaycan tarixində dərin izlər buraxdı.

1918-ci ilin əvvəlləri Qafqaz üçün son dərəcə gərgin bir dövr idi. Çar Rusiyası İmperiyası dağılmış, Birinci Dünya müharibəsi Şərqi Anadolu və Cənubi Qafqazı müharibə meydanına çevirmişdi. Bu xaos içərisində Azərbaycan, Gürcüstan və Ermənistan birlikdə Zaqafqaziya Seymi adlı birgə parlament qurmuşdu. Lakin üç millətin maraqları bir-birinə zidd olduğundan bu birlik uzun sürmədi.

XIX əsrin sonlarından etibarən Azərbaycan ziyalıları xalqın milli oyanışı üçün yorulmadan çalışdı. Onlar milli-azadlıq ideyalarını yayır, xalqa müstəqillik ruhunu aşılayırdılar. Bu mübarizənin nəticəsində 1918-ci il mayın 28-də tarixi bir hadisə baş verdi: Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurası “İstiqlal Bəyannaməsi”ni imzaladı. Bu sənəd yalnız Azərbaycanın deyil, bütün müsəlman Şərqinin tarixinə qızıl hərflərlə həkk olundu.

O vaxta qədər Şərq xalqları arasında demokratik idarəçilik prinsipi demək olar ki, mövcud deyildi. Azərbaycan Xalq Cümhuriyyəti isə bu tarixi boşluğu doldurdu. Seçkili parlament, müstəqil hökumət, Dövlət Bayrağı, Azərbaycan vətəndaşlığı - bütün bunlar qısa müddətdə formalaşdırıldı. Müsəlman dünyasında ilk dəfə qadınlara kişilərlə bərabər seçki hüququ verildi. Bu addım o dövr üçün çox cəsarətli bir demokratik irəliləyiş idi. Ulu Öndər Heydər Əliyev bu tarixi hadisəylə bağlı öz fikrini bildirmişdi: "Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin məhz Azərbaycan torpağında yaranması xalqımızın o dövrdə XIX əsrin sonunda və XX əsrin əvvəllərində milli müstəqillik, azadlıq duyğuları ilə yaşaması ilə bağlıdır. O illərdə xalqımızın qabaqcıl şəxsiyyətləri, mütəfəkkir adamları, ziyalıları xalqımızda milli-azadlıq, milli müstəqillik duyğularını gücləndirmiş, milli dirçəliş, milli oyanış əhval-ruhiyyəsi yaymış və bunların hamısı məntiqi olaraq Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına gətirib çıxarmışdır".

**(Ardı 3-cü səhifədə)**

## Əsrlərin sınağından çıxan Əsgəran qalası



Qədim zamanlardan Azərbaycan daim yadellilərin hücumlarına məruz qalıb. Bu hücumlardan müdafiə olunmaq məqsədilə Azərbaycan ərazisində müxtəlif istehkamlar və qalalar tikilib. Ona görə də Azərbaycan müdafiə məqsədilə tikilən istehkamlar və qalalarla zəngindir. Belə qalalardan biri də Əsgəran qalasıdır.

Əsgəran qalası Azərbaycan tarixinin mühüm tarixi abidələrindən biridir. Qala dövrünün həm hərbi mühəndislik sahəsindəki inkişafını göstərir, həm də Azərbaycanın zəngin tarixinin izlərini daşıyan bir simvol olaraq müasir dövrümüzə qədər gəlib çatıb.

**(Ardı 6-cı səhifədə)**

## Şuşadan Çitayadək uzanan qəhrəmanlıq yolu



Əliqulu Mirzə Qovanlı-Qacar 2 may 1854-cü ildə Şuşa şəhərində anadan olub. Atası Bəhmən Mirzə Qacar, anası isə Kiçik Bərdə xanım olub. Əliqulu Mirzə ailənin 13-cü oğlan övladı olub. O, hərbi təhsilini Tiflis Kadet Korpusunda alıb. Tiflis Kadet Korpusunu bitirdikdən sonra 24 mart 1875-ci ildə "kornet" hərbi rütbəsində xidmətə başlayıb və Qafqaz ordusuna daxil olan hərbi birliyə süvari olaraq təyinat alıb. 27 oktyabr 1875-ci ildə 164-cü Zaqatala Piyada Alayına təyin edilib.

Əliqulu Mirzə Qovanlı-Qacar 1877-ci ildə başlayan Rusiya-Osmanlı müharibəsinə göndərilib və Qafqaz cəbhəsində müxtəlif döyüşlərdə iştirak edib.

**(Ardı 8-ci səhifədə)**

# Azərbaycan Respublikası müdafiə nazirinin Qurban bayramı münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətinə təbriki

Cənab zabitlər, yoldaş gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər, matroslar, dövlət qulluqçuları və mülki işçilər!

Sizi islami dəyərləri özündə yaşadan Qurban bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, Vətənə müqəddəs və şərəfli xidmətinizdə uğurlar arzulayıram.

Hər il respublikamızda dövlət səviyyəsində ümumxalq bayramı kimi qeyd olunan, müsəlman dünyasının mənəvi birlik, həmrəylik, qardaşlıq rəmzinə çevrilmiş müqəddəs Qurban bayramı cəmiyyətimizdə milli-mənəvi dəyərlərə möhkəm bağlılığı yaşatmaqla humanizm, xeyirxahlıq və mərhəmət duyğularının təntənəsini özündə ehtiva edir.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin bütün dönəmlərində xalqımızın milli-mənəvi dəyərlərinin qorunub saxlanmasında və dövlətçilik ənənələrimizin möhkəmlənməsində müstəsna xidmətləri olmuşdur.

Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasət nəticəsində respublikamızın iqtisadi dayaqları daha da güclənərək demokratik dövlət quruculuğu prosesində beynəlxalq nüfuzu artmaqdadır.

Azərbaycan dünyada islami, bəşəri milli-mənəvi dəyərlərə önəm verən və hörmətlə yanaşan, humanist, tolerant dövlət kimi tanınır.

Azərbaycan dövləti bu gün regionda sülhün və sabitliyin qorunmasının əsas təminatçısına çevrilmişdir.

Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə ordumuzun Vətən müharibəsində qazandığı parlaq qələbə və həyata keçirdiyi uğurlu döyüşlər, həmçinin antiterror əməliyyatı nəticəsində işğalda olmuş torpaqlarımız azad olundu, ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam təmin edildi.

Əminəm ki, ordumuz Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi Anda və nizamnamələrə bundan sonra da sadiq qalacaq, döyüş və mənəvi-psixoloji hazırlığını daha da artıraraq, Ali Baş Komandanın əmr və tapşırıqlarını ən yüksək səviyyədə yerinə yetirəcəkdir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, hörmətli Mehriban xanım Əliyeva Vətən uğrunda gedən döyüş əməliyyatları zamanı yaralanmış hərbi qulluqçulara, o cümlədən şəhid ailələrinə və müharibə veteranlarına hər zaman xüsusi diqqət və qayğı göstərmişdir.

Respublikamızın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda gedən döyüş əməliyyatları zamanı canlarından keçmiş şəhidlərimizin əziz xatirəsini hörmət və ehtiramla yad edir, onların valideynlərini, ailələrini, torpaqlarımızın azadlığı uğrunda sağlamlığını itirən döyüşçülərimizi, veteranları Qurban bayramı münasibətilə təbrik edir, onlara ən xoş arzularımı çatdırıram.

Bir daha Sizi Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik, ailə səadəti və şərəfli xidmətinizdə yeni uğurlar arzulayıram. Arzu edirəm ki, müqəddəs Qurban bayramı həyatınıza əmin-amanlıq və firavanlıq, süfrələrinizə bol ruzi-bərəkət gətirsin.

Qurban bayramınız mübarək olsun!

**General-polkovnik**
**Zakir Həsənov**
**Azərbaycan Respublikasının**
**müdafiə naziri**

# Qazaxıstan nümayəndə heyəti ölkəmizə səfər edib







*Qazaxıstan Respublikası Milli Müdafiə Universitetinin rəisi general-mayor Baurjan Abjanovun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfər edib.*

Müdafiə Nazirliyi xəbər verir ki, qazaxıstanlı qonaqlar əvvəlcə Şəhidlər xiyabanını ziyarət edərək gül dəstələri qoyub, ehtiram nümayiş etdiriblər.

Daha sonra Milli Müdafiə Universitetinin (MMU) rektoru general-mayor Gündüz Əbdülov nümayəndə heyəti ilə görüşüb.

Görüşdə Qazaxıstan nümayəndə heyətinə universitetin yaranma tarixi, təhsil sistemi və əsas fəaliyyət istiqamətləri barədə brifinq təqdim olunub, Azərbaycan Ordusunda hərbi təhsil sahəsində həyata keçirilən islahatlar və onların müsbət nəticələri haqqında ətraflı məlumat verilib.

Bildirilib ki, hərbi təhsil sahəsində qarşılıqlı təcrübə mübadiləsi hərbi qulluqçuların bilik və bacarıqlarının artırılmasında mühüm əhəmiyyət kəsb edir.

Səfər çərçivəsində nümayəndə heyəti MMU-nun tabeliyində fəaliyyət göstərən Hərb Oyunları Mərkəzini, Heydər Əliyev adına Hərbi İnstitutu və Cəmşid Naxçıvanski adına Hərbi Liseyi ziyarət edərək yaradılmış şəraitlə tanış olub.

Ziyarət zamanı təhsil müəssisələrinin ərazisində mövcud olan Heydər Əliyev muzeyində qonaqlara Ulu Öndərin həyat yolu və siyasi fəaliyyəti haqqında geniş məlumat verilib.

Qazaxıstan nümayəndə heyətinin rəhbəri xatirə kitabına ürək sözlərini yazıb.

Zəfər Muzeyini ziyarət edən qonaqların diqqətinə Vətən müharibəsi zamanı qazanılmış tarixi qələbənin əhəmiyyəti çatdırılıb.

Sonda tərəflər arasında qarşılıqlı hədiyyələr təqdim olunub və xatirə şəkli çəkdirilib.

## Hərbi attaşelər Dövlət Sərhəd Xidmətində olublar




Müdafiə nazirinin 2026-cı il üçün təsdiq etdiyi fəaliyyət planına əsasən, xarici dövlətlərin ölkəmizdə akkreditə olunmuş hərbi attaşelərinin Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinə (DSX) tanışlıq səfəri təşkil olunub.

Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin təşkilatçılığı ilə keçirilən səfərdə 18 ölkənin hərbi attaşelik aparatlarının 26 nümayəndəsi iştirak edib.

Müdafiə Nazirliyi xəbər verir ki, tədbir çərçivəsində qonaqlara DSX-nin fəaliyyəti barədə ümumi məlumat verildikdən sonra "Siyasi repressiya qurbanları" muzeyi ziyarət edilib.

## Hərbi vəzifəlilərlə təlim toplanışı keçirilib





*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun 2026-cı il üçün təsdiq etdiyi hazırlıq planına əsasən, Xüsusi Təyinatlı Qüvvələrin "N" hərbi hissəsində bir qrup hərbi vəzifəlilərlə növbəti təlim toplanışı keçirilib.*

Müdafiə Nazirliyi xəbər verir ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə birgə tədbirlər çərçivəsində keçirilən toplanışın əsas məqsədi iştirakçıların hərbi hazırlığının və nəzəri biliklərinin artırılması, eləcə də praktiki vərdişlərinin təkmilləşdirilməsidir.

Toplanış zamanı hərbi vəzifəlilərlə atəş, taktiki, sıra, fiziki, ictimai-siyasi və digər hazırlıqlar üzrə məşğələlər keçirilib, eləcə də vətənpərvərlik istiqamətində maarifləndirici söhbətlər aparılıb.



*28 May Müstəqillik Günüdür*

# Müstəqillikdən Zəfərə aparan yol

**(Əvvəli 1-ci səhifədə)**

Tarixi ardıcıllığa nəzər yetirsək görəcəyik ki, mayın 26-da Gürcüstan müstəqilliyini elan etdi. Bu addım Zaqafqaziya birliyinin rəsmən sona çatdığını göstərirdi. Azərbaycan nümayəndələri isə iki gün sonra mayın 28-də Tiflisdə toplanaraq tarixi bir qərar qəbul etdilər və Azərbaycan Xalq Cümhuriyyəti yaradılmış elan edildi. Müsavat Partiyasının liderlərindən olan Məhəmməd Əmin Rəsulzadənin rəhbərliyi ilə formalaşan hökumət, ogünkü çətin şərtlərə baxmayaraq, dövlət quruculuğuna böyük inamla başladı.

Diqqətə çarpan o idi ki, cümhuriyyətin banilərinin çoxu Qərb universitetlərində təhsil almış, müasir dövlətçilik anlayışını dərindən mənimsəmiş ziyalılar idilər. Onlar həm milli ideallara sadiq idilər, həm də praktik idarəçilik zərurətlərini anlayırdılar. Bu birlik cümhuriyyəti qısa müddət ərzində fəal bir dövlətə çevirmək üçün möhkəm zəmin yaratdı.

Cümhuriyyət hökuməti əvvəlcə Gəncə şəhərini özünə mərkəz seçmişdi, çünki Bakı o zaman Bakı Kommunası adlanan bolşevik idarəçiliyinin nəzarətindəydi. Bakı Kommunası Azərbaycan xalqının milli maraqlarını tanımır, şəhəri, əslində, bolşevik Rusiyasının maraqları çərçivəsində idarə edirdi. Buna görə Bakının azad edilməsi cümhuriyyətin hərbi hədəflərindən birinə çevrildi.

1918-ci ilin sentyabrında Azərbaycan Ordusu Osmanlı hərbi qüvvələrinin dəstəyi ilə Bakı istiqamətində böyük bir hücum əməliyyatı həyata keçirdi. Ağır döyüşlər nəticəsində sentyabrın 15-də Bakı azad edildi. Bu tarix Azərbaycan hərb tarixinin ən parlaq səhifələrindən biri kimi qeydə alındı. Şəhərin azad edilməsi yalnız ərazinin geri qaytarılması deyildi, eyni zamanda, cümhuriyyətin öz torpaqları üzərindəki hakimiyyətini bərqərar etməsi demək idi.

Bakının azad edilməsinin ardınca cümhuriyyət hökuməti paytaxtını Gəncədən Bakıya köçürdü. Neftinin bolluğu və zənginliyi ilə tanınan bu şəhər artıq yeni dövlətin rəsmi mərkəzinə çevrildi. Neft gəlirləri olmadan ordunun saxlanması, dövlət aparatının işlədilməsi mümkün deyildi. Bu mənada Bakının azad edilməsi cümhuriyyətin iqtisadi müstəqilliyi baxımından da həlledici əhəmiyyət daşıyırdı.

1920-ci il aprelin 27-28-də Azərbaycana bolşevik orduları daxil oldu. Cümhuriyyətin üçrəngli bayrağı parlamentdən endirildi. Görünüşdə müstəqillik sona çatmışdı. Lakin xalqın qəlbindəki azadlıq arzusu, milli kimlik hissi söndürülə bilmədi.

Sovet dövründə Azərbaycan xalqı öz milli varlığını, dilini, mədəniyyətini qorumaq üçün mübarizə apardı. Bu mübarizənin ən parlaq simalarından biri Heydər Əliyev idi. O, Azərbaycana rəhbərlik etdiyi illərdə milli mənlik şüurunu dirçəltmək, ölkəni sosial-iqtisadi cəhətdən inkişaf etdirmək üçün böyük işlər gördü.

1990-cı il noyabrın 17-si, yəni, Sovet İttifaqı hələ mövcud olduğu o çətin günlərdə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında üçrəngli bayraq yenidən rəsmi Dövlət Bayrağı olaraq qaldırıldı. Bu, tarixi bir cəsarət nümunəsi idi. Totalitar bir sistemin içindən müstəqilliyə gedən yolun bünövrəsi qoyulurdu.

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul olundu. Bu sənəddə açıq şəkildə 1918-ci il "İstiqlal Bəyannaməsi"nə istinad edildi və Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğu qeyd edildi. Bu, tarixi varisliyin rəsmi olaraq tanınması demək idi.

Lakin müstəqilliyin elan edilməsi hər şeyi həll etmirdi. Ölkə dərin iqtisadi böhranın içindəydi. Ermənistan Azərbaycan torpaqlarına işğalçı hücumlar edirdi, Dağlıq Qarabağ və ətraf ərazilərimiz düşmən nəzarəti altına keçirdi. Daxili qarışıqlıqlar isə vəziyyəti daha da ağırlaşdırırdı. Bu çətin günlərdə xalq yenə Heydər Əliyevə üz tutdu.

"Müstəqilliyi qorumaq, saxlamaq o müstəqilliyi əldə etməkdən qat-qat çətin bir vəzifə idi", - deyən Ulu Öndər 1993-cü il iyunun 15-də hakimiyyətə qayıdaraq ölkəni parçalanmaq təhlükəsindən xilas etdi. O, güclü dövlətçilik iradəsi, dərin siyasi zəka və xalqa sonsuz sevgisi ilə Azərbaycana yeni bir istiqamət verdi. Onun həyata keçirdiyi milli birliyə çağırış, ordu quruculuğu, iqtisadi islahatlar dövlətimizin möhkəmlənməsinə xidmət etdi.

Ulu Öndərin yürütdüyü siyasət sayəsində Azərbaycan beynəlxalq arenada layiqli yerini tutmağa başladı. "Əsrin müqaviləsi" kimi tanınan neft sazişi imzalandı, neft gəlirləri ölkənin inkişafına yönəldildi.

Ümummilli Lider Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyi münasibətilə 1998-ci ildə xüsusi sərəncamlar imzaladı. Dövlət Komissiyası yaradıldı, tədbirlər planı hazırlandı. Bu addım, cümhuriyyətin tarixdəki roluna verilən dövlət səviyyəsindəki ehtiramın ifadəsiydi.

Dahi Rəhbər dedi ki: "Bu gün tam qətiyyətlə demək olar ki, Azərbaycan dövləti, müstəqil Azərbaycan Respublikası 1918-ci ildə yaranmış Xalq Cümhuriyyətinin varisidir".

Ümummilli Liderin siyasi kursunu davam etdirən Prezident İlham Əliyev Azərbaycanı yeni yüksəkliklərə qaldırdı. Onun rəhbərliyi ilə ölkədə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu sürətləndi, siyasi, iqtisadi və sosial islahatlar ardıcıl şəkildə həyata keçirildi.

2007-ci ildə Bakıda İstiqlaliyyət küçəsində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə "İstiqlal Bəyannaməsi" abidəsi ucaldıldı. Dövlət başçısı bu açılış mərasiminə şəxsən qatıldı. Bu addım tariximizə olan dərin ehtiramın daşa həkk olunmuş ifadəsiydi.

"Müstəqilliyimizin qorunması, möhkəmlənməsi ən vacib məsələlərdən biridir. 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı. Müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir və onların niyyətlərini biz həyatda təmin etdik, həyata keçirdik. Əminəm ki, müstəqillik yolunda bizim inkişafımız davamlı olacaq, uğurlu olacaq və Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaq!" - cənab Prezident İlham Əliyev vurğulamışdı. 2018-ci il ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edildi. Cümhuriyyətin 100 illik yubileyi dövlət səviyyəsində geniş qeyd olundu. Eyni zamanda, 1918-ci ilin dekabrında parlamentdə qaldırılıb, 1920-ci ilin aprelində oradan götürülmüş Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağı 2018-ci il mayın 24-də öz Vətəninə qaytarıldı. Bu bayraq bu gün Dövlət Bayrağı Muzeyinin əsas eksponatlarından biri kimi qorunur.

2021-ci ildə "Müstəqillik günü haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olundu. Bu qanunla 28 May "Müstəqillik Günü", oktyabrın 18-i isə "Müstəqilliyin Bərpası Günü" kimi rəsmi şəkildə təsbit edildi.

2020-ci ilin 44 günlük Vətən müharibəsi Azərbaycan tarixinin yeni parlaq səhifəsini açdı. Prezident İlham Əliyevin Müzəffər Ali Baş Komandan kimi rəhbərliyi ilə Azərbaycan Ordusu onilliklər boyu işğal altında qalmış torpaqlarımızı azad etdi. Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Şuşa, Xankəndi bir-birinin ardınca düşmənin pəncəsindən azad edilən bu şəhərlərin hər biri xalqımızın sevinci idi, ən əsası Zəfəri idi.

Zəfər Günü - noyabrın 8-i bu böyük qələbənin tarixi anını ölümsüzləşdirdi. Azərbaycan Bayrağı işğaldan azad olunmuş bütün torpaqlarda ucaldıldı. Bu, sadəcə hərbi qələbə deyildi, bu, 1918-ci ildən bu yana gələn milli iradənin, dönməz dövlətçilik əzminin ən parlaq təcəssümü idi.

Sonrakı illərdə Qarabağın tam işğaldan azad edilməsi prosesi tamamlandı. 2023-cü ilin 28 mayında Prezident İlham Əliyev Laçın şəhərinə qayıdan əhali ilə görüşdü. O görüş tarixin bir simvolu idi; müstəqillik günündə, azad olunmuş torpaqda, öz evinə qayıdan insanlarla birgə.

"Bu gün Müstəqillik Günüdür. Əziz laçınlılar, ilk növbədə sizi və bütün Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə təbrik edirəm. Bu gün ikiqat bayramdır. Çünki bu gün Laçın şəhərinin sakinləri uzun fasilədən sonra öz doğma şəhərinə qayıdıblar və bu münasibətlə həm sizi, həm də bütün Azərbaycan xalqını təbrik etmək istəyirəm. Bu görüşü məhz 28 May tarixində təşkil etməyimizin böyük rəmzi mənası var. Bu gün müstəqil Azərbaycan dövləti həm dünya miqyasında öz mövqelərini kifayət qədər möhkəmləndirib, eyni zamanda, bu gün müstəqil Azərbaycan dövləti istənilən nəticəni əldə etməyə qadirdir".

Müasir Azərbaycan Ordusu güclü, peşəkar və yüksək mənəvi ruhlu bir ordudur. Onun gücü yalnız silahda deyil, həm də tarixi missiyanı dərk etməkdə, dövlətinə, xalqına sonsuz sədaqətdədir. Azərbaycan bayrağını qaldıran hər bir əsgər eyni zamanda, 1918-ci il nəslinin əmanətini daşıyır.

2025-ci il 28 may tarixində Laçındakı çıxışında Prezident İlham Əliyev tarixi bir gerçəkliyi xatırlatdı: müstəqilliyin əldə edilməsi ilə iş bitmir, onu qorumaq daha böyük məsuliyyət tələb edir. 107 il əvvəl yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı. Lakin əkdiyi toxum tarixin dərinliklərindən keçərək bu günümüzə qədər gəlib çatdı.

"107 il bundan əvvəl müsəlman aləmində ilk demokratik respublika - Azərbaycan Xalq Cümhuriyyəti yaradılmışdır. Bu, böyük tarixi hadisə idi. Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı. İki il sonra - 1920-ci ilin aprel ayında müstəqilliyimiz əlimizdən alınmışdır. Ondan bir neçə ay sonra - 1920-ci ilin noyabr ayında sovet Rusiyası tərəfindən Qərbi Zəngəzur bölgəsi Azərbaycandan ayrılıb Ermənistana birləşdirilmişdir. Bu, böyük ədalətsizlik idi və Azərbaycan xalqı buna oxşar ədalətsizliklərlə tarix boyu üz-üzə qalmışdır. Ancaq xalqımızın iradəsi və qardaş xalqların dəstəyi bizə güc verirdi, bizi ruhlandırırdı və iradəmizi gücləndirirdi".

28 May - yalnız bir tarix deyil. Bu tarixi gün xalqımızın yüz illik yolunun xülasəsidir. "İstiqlal Bəyannaməsi"ndəki hər söz, cümhuriyyətin hər fəaliyyəti, Ulu Öndər Heydər Əliyevin hər qətiyyətli addımı, Prezident İlham Əliyevin hər zəfəri bu günün parlaq tarix səhifələrinə həkk olunub.

Azərbaycan Ordusu da bu böyük tarixi prosesin ayrılmaz hissəsidir. 1918-ci ildə Cümhuriyyətin qurucuları milli ordu qurarkən gələcək nəsillərə bir əmanət verdilər: bu torpaqları qoruyun, bu bayrağı daşıyın, bu müstəqilliyi saxlayın. Azərbaycan Ordusu bu əmanətə layiqincə sahib çıxdı. Bu gün 28 May - Müstəqillik Günündə xalqımız birlikdə sevinir, şəhidlərimizi hörmətlə yad edir, gələcəyimizə ümidlə baxır. Çünki Azərbaycanın müstəqilliyi əbədidir!

**Hüsniyyə NƏSİROVA**
**"Azərbaycan Ordusu"**

## Azərbaycan Ordusunda hərbi beşnövçülük üzrə birincilik keçirilib












Müdafiə nazirinin təsdiq etdiyi illik hazırlıq planına əsasən, Azərbaycan Ordusunun qoşun (qüvvə) növləri, xüsusi təyinatlı təhsil müəssisələrinin hərbi qulluqçuları arasında hərbi beşnövçülük üzrə birincilik keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, birincilikdə qoşun (qüvvə) növləri, xüsusi təyinatlı təhsil müəssisələrini təmsil edən idmançılar fərdi və komanda birinciliyi uğrunda 11 yığma komanda tərkibində mübarizə aparıblar.

İştirakçılar 8 kilometr məsafəyə qaçış, manelər zolağının dəf edilməsi, 200 metr məsafəyə avtomatdan atış, qumbaraatma və maneələrlə üzgüçülük növləri üzrə yarışlarda güclərini sınayıblar.

Gərgin mübarizə şəraitində keçən yarışların nəticələrinə əsasən, "Xüsusi Təyinatlı Qüvvələr", "Hərbi Hava Qüvvələri" və "Hərbi Dəniz Qüvvələri" komandaları müvafiq olaraq birinci, ikinci və üçüncü yerlərdə qərarlaşıblar.

Yekunda qaliblər diplom, kubok və medallarla mükafatlandırılıblar.

Qeyd edək ki, birinciliyin məqsədi hərbi qulluqçuların fiziki və psixoloji dözümlülüyünün yoxlanılması, eləcə də güclü komandaların müəyyən edilməsidir.

# Cümhuriyyət Ordusu dövlətçiliyimizin qürur mənbəyidir

*Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın tarixində yalnız ilk demokratik respublika kimi deyil, həm də milli ordu quruculuğunun başlanğıcı kimi mühüm yer tutur. Gənc dövlət mövcudluğunu qorumaq, ərazi bütövlüyünü təmin etmək və xalqın təhlükəsizliyini müdafiə etmək üçün güclü silahlı qüvvələrin yaradılmasını əsas vəzifələrdən biri hesab edirdi. Məhz buna görə də mürəkkəb ictimai-siyasi vəziyyətə baxmayaraq, qısa müddət ərzində milli ordunun formalaşdırılması istiqamətində ciddi addımlar atıldı.*



1918-ci il iyunun 26-da Əlahiddə Azərbaycan Korpusunun yaradılması milli ordunun əsasının qoyulması baxımından tarixi hadisə idi. Bu addım Azərbaycan xalqının öz dövlətini və istiqlalını qorumaq əzminin göstəricisinə çevrildi. Ardınca Hərbi Nazirliyin təsis olunması ordu quruculuğunun daha planlı və sistemli şəkildə həyata keçirilməsinə imkan verdi. Gənc respublikanın rəhbərliyi anlayırdı ki, müstəqil dövlətin dayaqlarından biri məhz peşəkar və intizamlı ordudur.

Qısa müddət ərzində təşkil



olunan hərbi hissələr ölkənin müdafiəsində mühüm rol oynadı. Azərbaycan hərbçiləri Qafqaz İslam Ordusu ilə birlikdə Bakının işğaldan azad olunması uğrunda döyüşlərdə böyük şücaət göstərdilər. Bununla yanaşı, ermənilərin təxribatları sayəsində bölgələrdə baş verən silahlı qarşıdurmaların qarşısının alınması, sərhədlərin qorunması və dövlət təhlükəsizliyinin təmin olunması istiqamətində də uğurlu fəaliyyət nümayiş etdirildi.

AXC dövründə ordu quruculuğuna xüsusi diqqət ayrılması təsadüfi deyildi. Dövlət rəhbərləri yaxşı bilirdilər ki, müstəqilliyin qorunması yalnız siyasi qərarlarla deyil, eyni zamanda, güclü hərbi qüvvə ilə mümkündür. Bu məqsədlə peşəkar zabit heyətinin hazırlanmasına, hərbi intizamın möhkəmləndirilməsinə və milli ruhun yüksəldilməsinə xüsusi önəm verilirdi.

Həmin dövrdə Azərbaycanın tanınmış hərbi xadimləri ordu quruculuğunda mühüm xidmətlər göstərdilər. Səməd bəy Mehmandarov və digər təcrübəli zabitlərin fəaliyyəti milli ordunun təşkilatlanmasına böyük töhfələr verdi. Onların peşəkarlığı sayəsində gənc Azərbaycan Ordusu qısa zamanda döyüş qabiliyyətinə malik qüvvəyə çevrildi.

Ümummilli Lider Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini yüksək dəyərləndirərək bu dövrü xalqımızın tarixində mühüm mərhələ adlandırırdı. Həqiqətən də, AXC dövründə əsası qoyulan milli ordu ənənələri sonrakı dövrlərdə də yaşadıldı və müasir Azərbaycan Silahlı Qüvvələrinin formalaşmasına təsir göstərdi.

Bu gün Azərbaycan Ordusunun qazandığı uğurlar, əldə etdiyi qələbələr milli ordu quruculuğunun tarixi köklərə söykəndiyini bir daha sübut edir. Cümhuriyyət Ordusu xalqımızın müstəqillik ruhunun, Vətən sevgisinin və dövlətçilik düşüncəsinin parlaq ifadəsi kimi tariximizdə xüsusi yer tutur.

Azərbaycan xalq ordusunun qısa zaman ərzində formalaşaraq döyüş qabiliyyətli hərbi qüvvəyə çevrilməsi həmin dövr üçün böyük uğur hesab olunurdu. Bu uğurun əsas səbəblərindən biri ordu quruculuğuna rəhbərlik edən şəxslərin yüksək hazırlığa və zəngin təcrübəyə malik olmaları idi. Hərbi rəhbərlik mövcud nəzəri bilikləri və beynəlxalq təcrübəni Azərbaycanın ictimai-siyasi vəziyyəti ilə uyğunlaşdıraraq milli maraqlara cavab verən ordu modeli yaratmağa çalışırdı. Bu yanaşma ordunun milli əsaslar üzərində qurulmasına mühüm təsir göstərdi.

Lakin həmin dövrdə ordu quruculuğu prosesi müəyyən çətinliklərlə də müşayiət olunurdu. Türk hərbi hissələrinin ölkədən ayrılması yeni mərhələnin başlanmasına səbəb olmuşdu. Çünki ordunun ilkin təşkili türk zabitlərinin rəhbərliyi altında həyata keçirildiyindən onların idarəçilik ənənələri və hərbi üsulları orduda hiss olunurdu. Digər tərəfdən, yüksək rütbəli zabitlərin əksəriyyəti keçmiş Rusiya imperiyası ordusunda xidmət etmiş və həmin sistemin hərbi ənənələri ilə formalaşmışdılar. Buna görə də milli ordunun Azərbaycan ruhunda inkişaf etdirilməsi üçün xarici təsirlərin yerli şəraitə uyğun olmayan cəhətlərinin aradan qaldırılması vacib sayılırdı.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə fəaliyyət göstərən Hərbi Nazirlik bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirdi. Məqsəd başqa dövlətlərin hərbi modelini tam şəkildə təkrarlamaq deyil, mövcud təcrübədən faydalanaraq milli ordu ənənəsini yaratmaq idi. Nəticədə qısa müddət ərzində Azərbaycan reallıqlarına uyğun, milli ruhu özündə birləşdirən nizami ordu formalaşdırıldı. Sonrakı hadisələr də sübut etdi ki, milli xüsusiyyətlərə əsaslanan ordu modeli daha dayanıqlı və səmərəli idi.

1918-1920-ci illərdə ordu quruculuğu dövlət siyasətinin əsas istiqamətlərindən biri hesab olunurdu. Gənc respublika rəhbərliyi anlayırdı ki, müstəqilliyin qorunması yalnız güclü və təşkilatlanmış ordu vasitəsilə mümkündür. Buna görə də müdafiə sisteminin möhkəmləndirilməsi, hərbi hissələrin vahid idarəetmə altında birləşdirilməsi və orduda intizamın artırılması istiqamətində ciddi addımlar atılırdı.

Hərbi Nazirliyin yenidən fəaliyyətə başlamasından sonra ilk diqqət yetirilən məsələlərdən biri dağınıq vəziyyətdə olan hərbi hissələrin mərkəzləşdirilmiş idarəetmə sisteminə cəlb olunması idi. Qısa vaxt ərzində nazirliyin aparatı yaradıldı və ordunun idarə olunması üçün zəruri strukturlar formalaşdırıldı. 1918-ci il noyabrın 15-də Səməd bəy Mehmandarov ordunun Ümumi Qərargahının yaradılması barədə əmr verdi. Bu qərar ordunun idarəçilik sisteminin daha çevik və səmərəli fəaliyyət göstərməsinə şərait yaratdı.

Mudros müqaviləsindən sonra Bakıya daxil olmağa hazırlaşan ingilis qoşunlarının komandanı V.Tomson Azərbaycan hərbi hissələrinin şəhərdən çıxarılmasını tələb edirdi. İngilis tərəfi Bakını strateji əhəmiyyətə malik mühüm mərkəz hesab edir və şəhər üzərində tam nəzarəti ələ almağa çalışırdı. Həmin dövrdə Azərbaycan hökumətinə və onun hərbi qüvvələrinə etimadsız münasibət göstərildiyi üçün Hərbi Nazirlik fəaliyyətini Gəncədə davam etdirmək qərarına gəldi.

O zaman ordunun əsas hissə və birləşmələri Gəncə və Qarabağ bölgəsində yerləşirdi. Nazirliyin Gəncəyə köçməsindən sonra, 1918-ci il noyabrın 27-dən dekabrın 3-dək ordu rəhbərliyi bölgələrdə yerləşən hissələrə baxış keçirdi, onların vəziyyəti və döyüş hazırlığı ilə yaxından tanış oldu. Bu səfərlər orduda intizamın gücləndirilməsi və idarəçiliyin təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyırdı.

Qarşıya qoyulan əsas məqsədlərdən biri də hərbi qulluqçuların Azərbaycan dövlətinə sədaqət ruhunda birləşdirilməsi idi. Buna görə orduda xidmət edən şəxslərin Azərbaycan Respublikasına sədaqət andı içməsi xüsusi əhəmiyyət kəsb edirdi. Bu addım orduda milli birlik hissinin, vətənpərvərlik ruhunun və dövlətçilik düşüncəsinin möhkəmlənməsinə xidmət edirdi.

Azərbaycan Xalq Cümhuriyyəti illərində ordu quruculuğu yalnız hərbi gücün artırılması ilə məhdudlaşmırdı. Həmin dövrdə əsas məqsədlərdən biri də milli ruhu və dövlətçilik düşüncəsini özündə birləşdirən ordu yaratmaq idi. Buna görə Azərbaycan dili orduda mühüm yer tutmağa başladı və hərbi hissələrdə rəsmi ünsiyyət vasitəsinə çevrildi.

Azərbaycan dili orduda dövlət dili elan edilmişdi. Hərbi rəhbərlik qeyri-azərbaycanlı zabitlər qarşısında Azərbaycan dilində komanda vermək tələbi qoymuşdu. Onlardan qısa müddət ərzində ən vacib hərbi terminləri və əmrləri öyrənmək tələb edilirdi. Əsgərlərlə ana dilində ünsiyyət qurulması orduda qarşılıqlı anlaşmanı gücləndirir, şəxsi heyətin xidmətə bağlılığını artırırdı. Verilən göstərişlərə əməl etməyən zabitlərin ordudan uzaqlaşdırılması nəzərdə tutulurdu ki, bu da dövlət dilinə verilən önəmin göstəricisi idi.

Orduda savadsızlığın aradan qaldırılması və Azərbay-



can dilinin tədrisi üçün xüsusi kurslar təşkil edilmişdi. Tədris prosesinə təcrübəli müəllimlər və hazırlıqlı mütəxəssislər cəlb olunurdu. Əsgərlərin hərbi bilikləri ana dilində mənimsəməsi onların həm mənəvi hazırlığını gücləndirir, həm də xidmət zamanı özlərinəinamını artırırdı. Bu məsələ Hərbi Nazirlik tərəfindən xüsusi diqqətdə saxlanılırdı.

Şəxsi heyətin milli ruhda formalaşdırılması məqsədilə mənəvi tərbiyə işinə də geniş yer verilirdi. Əsgərlərə xalqın qəhrəmanlıq tarixi, azadlıq uğrunda mübarizə ənənələri və milli dəyərlər haqqında məlumatlar çatdırılırdı. Hərbi hissələrdə keçirilən söhbətlər zamanı Vətənə sədaqət, Hərbi Anda bağlılıq və dövlətçilik məsuliyyəti kimi mövzular xüsusi vurğulanırdı. Bu fəaliyyətlər orduda vətənpərvərlik hissinin daha da möhkəmlənməsinə xidmət edirdi.

Milli ordunun formalaşdırılması prosesində hərbi geyimlərin yenilənməsi də mühüm məsələlərdən biri idi. Hərbi Nazirlik fəaliyyətə başladıqdan sonra geyim formalarının milliləşdirilməsi istiqamətində işlər aparıldı və bunun üçün xüsusi komissiya yaradıldı. Komissiyanın fəaliyyətinə general-leytenant Ə.Şıxlinski rəhbərlik edirdi. Komissiyanın hazırladığı geyim layihəsi 1919-cu il yanvarın 1-də hərbi nazirin əmri ilə rəsmi şəkildə təsdiq edildi. Hazırlanan yeni geyim nümunələri milli xüsusiyyətləri özündə əks etdirərək ordunun fərqli kimliyinin formalaşmasına töhfə verirdi.

Azərbaycan Xalq Cümhuriyyəti Ordusunun yaradılması ölkənin hərb tarixində mühüm mərhələ hesab olunur. Milli ordunun təşkili ilə Azərbaycanda müasir silahlı qüvvələrin əsası qoyuldu və hərbi idarəçilik sahəsində yeni yanaşmalar meydana çıxdı. Bu ordu əvvəlki hərbi ənənələrdən fərqli olaraq milli dövlətçilik ideyalarına və müasir idarəetmə prinsiplərinə əsaslanırdı.

XX əsrin əvvəllərində yaradılan milli ordu demokratik dəyərlərə söykənirdi. Şərqdə ilk demokratik respublika olan Azərbaycanın siyasi xətti ordunun təşkilində də aydın hiss olunurdu. Dövlət müstəqilliyinin qorunması, xalqın təhlükəsizliyinin təmin edilməsi və milli maraqların müdafiəsi ordu quruculuğunun əsas istiqamətləri sayılırdı. Buna görə orduda intizamın, birlik ruhunun və Vətən sevgisinin gücləndirilməsinə xüsusi önəm verilirdi.

Cümhuriyyət Ordusunun yaratdığı hərbi irs sonrakı dövrlərdə də öz əhəmiyyətini qoruyub saxladı. Müasir Azərbaycan Ordusunun peşəkarlığında, döyüş ruhunda və milli-mənəvi dəyərlərində həmin dövrdə formalaşan ənənələrin izi açıq şəkildə görünür. Əsası Xalq Cümhuriyyəti dövründə qoyulmuş Azərbaycan Ordusu hazırda regionun ən güclü ordusu, dünyanın 50 qüdrətli ordusu sırasındadır. Qürurla deyə bilərik ki, bu qüdrətli ordu Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində 30 ilə yaxın müddətdə işğal altında olan torpaqlarımızın ermməni silahlı qüvvələrindən azad olunmasına yüksək döyüş bacarığı göstərərək, adını şanlı hərb tariximizin səhifələrinə qızıl hərflərlə yazdı. Bu gün Azərbaycan əsgərinin qələbə əzmi və Vətənə bağlılığı da Cümhuriyyət dövründən gələn tarixi irsin davamı kimi qiymətləndirilir.

**Kapitan**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

*Yaz səhəridir. Amma hava qışdakı kimi soyuqdur. Kiçik Qafqaz dağlarının yüksəklikləri yenə ağ örpəyə bürünüb. Necə gündür dağlara yağan qar, havaların soyuq keçməsi yazın gəlişini gecikdirir. Qarşıda dağlar, yastı təpələr, yamaclar sıralanıb. Dağların bağrını yarıb yal boyunca o üz, bu üz səngərlər uzanır. Uzaqda dağların ətəklərində bəzən yığcam, bəzən də səpələnmiş evlər görünür. Şərti dövlət sərhədinin o üzündə görünən kənddə ermənilər yaşayırlar. Onlar bir zamanlar həmin kəndlərə toplaşıb bizi atəşə məruz qoyurdular. Hətta dəfələrlə hücum edib ərazilərimizi işğal etmək də istəmişdilər. Qəhrəman oğullarımız düşmən hücumlarının qarşısını alaraq erməniləri ağır itkilərə düçar etmiş, istəklərinə nail olmağa qoymamışdılar. Bir zamanlar topların, avtomatların və başqa silahların atəş səsləri bu səngərlərdən kəsilməzdi. Zirehli döyüş texnikalarının da cövlan etdiyi bu yerlərdə indi tam sakitlikdir. Gərgin illərdən indi yalnız döyüş mövqeləri qalıb.*

*Reportaj*

# Susan səngərlər



Kapitan Maarif Zeynalov ərazidən keçən hər cığıra, hər izə yaxından bələddir. Çünki neçə illərdir burada xidmət edir. Zabit ayaq saxlayıb qarşıdakı dağlardan keçən Ermənistan ordusunun mövqelərini göstərib dedi:

- 2020-ci il sentyabrın 27-də başlayan əks-hücum əməliyyatı 30 ilə yaxın erməni işğalı altında qalmış torpaqlarımızın azad edilməsi ilə nəticələndi. Cəmi 44 gün davam edən müharibədə düşmən məğlub oldu. Müharibə vaxtı əsgərlər bu mövqelərdə tam döyüş vəziyyətinə gətirilmişdilər. Ermənistanla şərti dövlət sərhədi buradan keçdiyi üçün demək olar ki, döyüşlər bu istiqamətdə getməyib.

Səngərlər, atəş sektorları olduğu kimi qalır. Dərin əlaqə yolları ilə dayaq məntəqəsinin qazmasına gəldik. Əsgərlər həmişə olduğu kimi, növbə ilə müşahidə aparırdılar. Əvvəlki gərginlikdən əsər-əlamət qalmamışdır. Sanki qarşıda silahlı düşmən yoxdur. Burada xidmət edən əsgərlər deyirlər bu, burada daha güllələr atılmasa da, onlar öz ehtiyatlarını əldən vermir, müşahidəni aramsız aparırlar.

On ildən artıqdır xidmət edən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Məhəmməd Məmmədov Tovuz rayonunun Qaradaş kəndindəndir. İkinci Qarabağ müharibəsindən əvvəl cəbhənin müxtəlif istiqamətlərində xidmət edib. Məhəmməd 2016-cı ilin Aprel döyüşlərində Füzuli istiqamətində gedən döyüşlərdə iştirak etdiyini bildirdi. Onun başlıca məqsədi Vətən torpaqlarının azad olunmasına, ölkəmizin ərazi bütövlüyünün təmin edilməsinə öz töhfəsini vermək idi. Məhəmməd dedi: "Müharibədə məğlub olan qarşı tərəf anlayır ki, işğalçılıq siyasətindən əl çəkmək lazımdır. Otuz ilə yaxın işğal etdiyi əraziləri nəzarətdə saxlasalar da, sonda Azərbaycan Ordusu ən qısa zamanda torpaqlarını azad etdi. Artıq ermənilər yaxşı dərk edirlər ki, onlar Azərbaycanın bir qarış torpağını belə işğal edə bilməzlər. İşğalın nə ilə bitəcəyi onlara yaxşı məlumdur".

Əsgər Əjdər Ağayev bir ilə yaxındır xidmət edir. O, Bakıda anadan olub. Hazırlıq dövrü bitəndən sonra bu hərbi hissədə xidmətini davam etdirdiyini bildirdi. Dağlıq ərazidə döyüş növbətçiliyini aparmaq onun üçün qürurvericidir. Postda xidmət edən əsgərlərin hər biri ölkəmizin müxtəlif bölgələrindəndir. Onlar bir məqsəd, bir amal uğrunda olduqlarını yaxşı dərk edirlər.

Əsgər Yusif Yusifli ali təhsillidir. Silahdaşlarından yaşca böyükdür. O, üzərinə düşən xidməti vəzifələrini layiqincə yerinə yetirir. Əsgər yoldaşları arasında ən az xidmət edən Yusif olsa da, gündəlik xidmət onların arasında bərabər bölünüb.

Əsgərlərdən Vüsal Məmmədov, Dünyamin Ağazadə, Əli Almuradov, Əli Qurbanov postda müşahidə apardığı zaman qarşı tərəfin öz mövqelərində göründüyünü dedilər.

2020-ci il sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev cəbhədə düşmənin aramsız təxribatlarına son qoymaq üçün əks-hücum əmrini verdi. Bununla da İkinci Qarabağ müharibəsi başladı. Bu müharibədə qarşı tərəf Qarabağda və digər ərazilərdə məğlubiyyətə uğrayaraq kapitulyasiya aktını imzalamağa məcbur edildi. Onlar anladılar ki, qonşu dövlətin torpağını işğal edib zorla öz ərazilərinə qata bilməzlər. Məlum müharibədən və 2023-cü il 19-20 sentyabr tarixlərində keçirilən antiterror əməliyyatı nəticəsində Azərbaycanın ərazi bütövlüyü tam bərpa olundu.

Əsgər Vüsal Məmmədov dedi: "İkinci Qarabağ müharibəsi gedən zaman orta məktəbdə oxuyurdum. O zaman ərazilərimizin bir hissəsi ermənilərin işğalı altında idi. Onlar işğal etdikləri ərazilərdən başqa yeni ərazilərimizi işğal edib öz ölkəsinin ərazisinə birləşdirmək istəyirdilər. Bir məktəbli olaraq ermənilərin nə qədər haqsız olduğunu yaxşı bilirdim və haqlı olaraq da əsgərlərimizin döyüşərək doğma torpaqlarımızı azad etməsinə sevinirdim. Hər dəfə dövlətimizin başçısı ordumuzun uğurlu hərbi əməliyyatları barədə məlumat verəndə sevincimin həddi-hüdudu olmurdu. Tale elə gətirdi ki, böyüyüb Ermənistanla şərti dövlət sərhədində, bir vaxtlar təmas xətti hesab edilən mövqelərdə hərbi xidmət edəsi oldum. Bu mənə qürur verir. Biz burada daim ayıq-sayıq xidmət aparırıq. Səngərlər susub, atəş sektorlarından daha silahlar işə düşmür. Bu, bizi sevindirir. Müşahidə olunan hər bir hadisəni qeydə alırıq və qərargaha məlumat veririk".

Postda əsgərlər üçün yaradılan şərait də ürəkaçandır. Onların müşahidə postundan qayıdandan sonra istirahət etməkləri üçün münbit şərait var. Burada əsgərlərin geyim, ərzaq və başqa təminatları da lazımi səviyyədədir.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

*Nümunəvi xidmət*

## Azərbaycan gəncliyi dövlətinə, xalqına və milli dəyərlərinə sadiqdir

*Ezamiyyətdə olduğumuz zaman ordumuzun bölmələrində Vətənə sədaqətlə xidmət edən əsgərlərimizlə görüşür, onların düşüncə və arzularını dinləyirik. Bu görüşlər zamanı hər dəfə şahidi oluruq ki, Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizə bağlı, Vətən sevgisi ilə yaşayan, dövlətinə və xalqına sədaqətlə xidmət etməyə hazır olan bir nəslin davamçısıdır. Əsgərlərimizin hər biri qətiyyətlə bildirir ki, ata-babalarımızdan bizlərə miras qalan müqəddəs əmanətin - ana Vətənimizin keşiyində dayanmaq, ölkəmizin təhlükəsizliyini qorumaq hər bir Azərbaycan gəncinin şərəfli və müqəddəs borcudur.*

"N" hərbi hissəsində xidmət edən belə vətənpərvər gənclərdən biri də rabitəçi əsgər Ramin Nəsirovdur. Bölmənin zabiti Raminin xidmətindən qürurla danışdı. O bildirdi ki, əsgər R.Nəsirov xidmətində nizam-intizamı, məsuliyyəti və tapşırıqlara ciddi yanaşması ilə seçilib, qısa müddətdə özünü bacarıqlı və nümunəvi hərbi qulluqçu kimi tanıdıb. "O, verilən tapşırıqları vaxtında və dəqiq yerinə yetirir. Ramin yalnız xidmətə münasibəti ilə deyil, davranışı və kollektivin üzvləri ilə münasibətində də seçilir. Əsgər yoldaşları arasında hörmət qazanıb. Belə gənclərimizin xidmətə məsuliyyətlə yanaşması bölmənin döyüş hazırlığının yüksəldilməsində mühüm rol oynayır. Raminin ailəsində aldığı tərbiyə, xüsusilə atasının hərbçi olması onda Vətən sevgisini və xidmətə bağlılığı daha da gücləndirib", - deyə zabit fikrini tamamladı.

Bölmədə hər bir əsgər öz vəzifəsinə böyük məsuliyyətlə yanaşır. Şəxsi heyət nizam-intizam qaydalarına ciddi əməl edir, döyüş hazırlığının yüksəldilməsi istiqamətində keçirilən məşğələlərdə fəallıq göstərir.



Əsgər Ramin Nəsirov bildirdi ki, hərbi xidməti Vətən qarşısında müqəddəs övladlıq borcu hesab edir. "Vətən bizim qürurumuz, güvənc yerimizdir. Onun keşiyində dayanmaq hər bir Azərbaycan gənci üçün böyük şərəfdir. Xidmətə başladığım ilk gündən qarşıma məqsəd qoymuşam ki, nizam-intizama ciddi əməl edim, hərbi ixtisasımın sirlərini dərindən öyrənim və üzərimə düşən vəzifələri vicdanla yerinə yetirim. Rabitəçi kimi anlayıram ki, ixtisasım xüsusi diqqət və məsuliyyət tələb edir. Buna görə də xidmət zamanı daim ayıq-sayıq olmağa çalışıram. Rabitə qovşağında xidmət apararkən vəzifələrimi məsuliyyətlə icra etməyə, məlumatların vaxtında çatdırılmasına xüsusi diqqət yetirirəm. Döyüş növbətçiliyi zamanı əlaqənin fasiləsiz və dayanıqlı təmin olunması bizim əsas vəzifələrimizdəndir".

Ramin qeyd etdi ki, hərbi xidmət ona həm də dözümlülük, iradə və kollektiv ruhu qazandırıb. "Burada hər birimiz bir amal uğrunda xidmət edirik. Komandirlərimizin bizə göstərdiyi diqqət və qayğı xidmətə olan həvəsimizi daha da artırır. Mən fəxr edirəm ki, Azərbaycan Ordusunun əsgəriyəm. Vətəni qorumağın necə müqəddəs bir hiss olduğunu hərbi xidmətdə daha dərindən anlayırıq".

Raminin sözlərindən aydın hiss olunurdu ki, bugünkü Azərbaycan gənci Vətən sevgisini yalnız sözlə deyil, əməli fəaliyyəti ilə də nümayiş etdirir. Məhz belə gənclərin sayəsində ordumuzun sıralarında ruh yüksəkliyi, vətənpərvərlik və qələbə əzmi hökm sürür. 44 günlük Vətən müharibəsində Azərbaycan gəncliyi bunun ən parlaq nümunəsini göstərdi. Minlərlə gənc Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında torpaqlarımızın azadlığı uğrunda igidliklə döyüşərək tarix yazdı. Həmin günlərdə Azərbaycan əsgərinin gücü, iradəsi və Vətənə sonsuz sevgisi bütün dünyaya nümayiş olundu. Bu gün ordumuzun sıralarında xidmət edən gənclər də həmin şanlı Zəfərin ruhu ilə yetişir, qəhrəman şəhidlərimizin, igid hərbi qulluqçularımızın şərəfli xidmət yolunu böyük qürurla davam etdirirlər.

Azərbaycan Ordusunun sıralarında xidmət edən vətənpərvər gənclərlə həmsöhbət olduqca bir daha əmin oluruq ki, Azərbaycan gəncliyi dövlətinə, xalqına və milli dəyərlərinə sadiqdir. Bu gün Vətənin keşiyində ayıq-sayıq dayanan belə gənclər sabahımızın etibarlı təminatıdır. Onların xidmətə olan məsuliyyəti, Vətənə sonsuz sevgisi və qalib ordunun əsgəri olmaq qüruru Azərbaycan dövlətinin gücünü və qüdrətini daha da artırır.

**Baş leytenant**
**Elçin İMANOV**
**"Azərbaycan Ordusu"**

*Tibb xidməti*

# “Əsgər Vətəni, hərbi həkim isə onun sağlamlığını qoruyur”

Həkimlik insan həyatında ən müqəddəs və məsuliyyətli peşələrdən biridir. Bu peşənin çətin və şərəfli istiqamətlərindən biri də hərbi tibb sahəsidir. Hərbi həkimlərimiz, eyni zamanda, torpaqlarımızın keşiyində dayanan Vətən müdafiəçilərinin sağlamlığını qoruyur. Bu səbəbdən hərbi həkim olmaq yalnız tibbi bilik deyil, həm də psixoloji dözümlülük və Vətənə bağlılıq tələb edir.

"N" hərbi hissəsində tibb xidməti kapitanı Məhəmməd İslamzadə ilə həmsöhbət olduq. Əslən Ağstafa rayonundan olan Məhəmməd 2011-2017-ci illərdə Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsində təhsil alaraq həkimlik peşəsinin təməl biliklərinə yiyələnib. Təhsil illərində həm klinik nəzəriyyə, həm də hərbi tibb peşəsinin tələb etdiyi yüksək məsuliyyət, operativ qərarvermə və dəqiq yanaşma prinsiplərini mənimsəyib. İxtisasını daha da təkmilləşdirmək məqsədilə 2019-2023-cü illərdə Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsində “Otorinolarinqologiya” ixtisası üzrə rezidentura təhsili alıb. Bu müddət ərzində qulaq, burun, boğaz xəstəliklərinin diaqnostikası, konservativ və cərrahi müalicə üsulları üzrə geniş klinik təcrübə qazanıb. Həmsöhbətim bununla da kifayətlənmir, 2021-2022-ci illərdə qardaş Türkiyənin aparıcı tibb mərkəzlərindən biri olan Gülhanə Təhsil və Araşdırma Xəstəxanasında təkmilləşmə keçərək müasir otorinolarinqoloji yanaşmalar, endoskopik cərrahiyyə texnikaları və mürəkkəb cərrahi müdaxilələr sahəsində bilik və bacarıqlarını inkişaf etdirib. Əldə etdiyi bu beynəlxalq klinik təcrübə onun praktik fəaliyyətində müasir tibbi standartları tətbiq etməsinə mühüm töhfə verib. Qazandığı biliklər sayəsində tibb xidməti kapitanı Məhəmməd İsmayılzadə hazırda otorinolarinqologiyanın geniş spektrini əhatə edən diaqnostik və cərrahi müdaxilələri uğurla icra edir.



Zabit söhbət zamanı qeyd etdi: “Həkimlik mənim üçün sadəcə peşə deyil. Vətən müdafiəçilərinin sağlamlığının keşiyində dayanmaq ən müqəddəs vəzifədir. Çünki Ana Vətəni qoruyanların sağlamlıqları sənə əmanət olunub. Hərbi həkim olmaq həm tibbi savad, həm də iradə tələb edir. Eyni zamanda, operativ qərarvermə, hərbi intizam və çətin şəraitdə soyuqqanlı davranış baxımından da daim hazır olmalısan".

Peşəsinin vurğunu olan Məhəmməd bu sahədə dəqiqliyi, səmimi ünsiyyəti, hər bir klinik vəziyyətə fərdi yanaşması və daim yenilənən tibbi biliklərə açıq olması ilə tanınır. Əsas məqsədi xəstələrə müasir tibbin imkanlarından istifadə etməklə ən doğru diaqnoz və effektiv müalicəni tətbiq etməkdir.

Otorinolarinqologiya sahəsinin həm geniş, həm də son dərəcə incə bir istiqamət olduğunu bildirən tibb xidməti kapitanı M.İslamzadə bildirdi: “Xidmət şəraiti, iqlim dəyişiklikləri və yüksək fiziki yüklənmə səbəbindən burun, qulaq və boğaz kimi orqanlarda patologiyalar hərbi qulluqçular arasında mümkündür. Bölmədə septoplastika, adenotonzillektomiya, endoskopik sinus cərrahiyyəsi, travmatik LOR zədələrinin bərpası və qulaq mikrocərrahiyyəsi kimi əməliyyatlar həyata keçirilir. Hər bir müayinə, müalicə və əməliyyatın əsas məqsədi isə hərbi qulluqçuların qısa müddətdə sağalaraq öz bölmələrinə sağlam şəkildə qayıtmasını təmin etməkdir".

Hərbi həkim tibb sahəsini seçən insanın daim peşəsinin sirlərini öyrənməli, öz üzərində çalışmalı olduğunu vurğuladı. Tibb elmi hər gün yenilənir və xüsusilə cərrahiyyə sahəsində dəqiqlik, müasir avadanlıq və təcrübə əsas rol oynayır. Bununla yanaşı, hərbi həkim üçün vətənpərvərlik də vacib amildir. Çünki hərbi forma sadəcə geyim deyil, məsuliyyət və şərəfdir. O formanı daşımaq üçün həm biliyin, həm də vətənpərvərlik hissin gücü olmalıdır.

Hərbi xidmətin qürurverici olduğunu vurğulayan Məhəmməd həkim dedi ki, əsgərlərin gözündəki inamı görmək, onları müayinə və müalicə etdikdən sonra eşidilən "sağ olun" kəlməsi bütün yorğunluğu unutdurur. Onun sözlərinə görə, hərbi həkimlərin işi səngərin bir addım arxasında dayanır. "Əsgər Vətəni, hərbi həkim də onun sağlamlığını qoruyur. Bu isə ən azı döyüş əməliyyatları qədər məsuliyyətli və vacib missiyadır", - zabit dedi.

Bu gün qalib Azərbaycan Ordusunun gücü yalnız silah və texnikada deyil, həm də insan faktorundadır. Sağlam və peşəkar hərbi qulluqçular isə güclü ordumuzun əsas təməlidir. Hərbi tibb müəssisələrində fəaliyyət göstərən tibbi personal isə həmin təməli qoruyan görünməyən qəhrəmanlardır.

**Baş leytenant**
**Elçin İMANOV**
**"Azərbaycan Ordusu"**

*Tikdim ki, izim qala...*

# Əsrlərin sınağından çıxan Əsgəran qalası



**(Əvvəli 1-ci səhifədə)**

Qala Cənubi Qafqazın hərbi tarixində mühüm bir yeri olan və bölgədə strateji əhəmiyyətə malik bir tikilidir. Qalanın tikilmə səbəbi dövrünün güclü dövlətləri tərəfindən ölkəmizə qarşı aparılan müharibə, eləcə də, əsassız torpaq iddiaları ilə bağlıdır.

Əsgəran qalasının memarlığı öz dövrünə xas olan xüsusiyyətlərinə görə çox möhkəm və qeyri-adi bir quruluşa malikdir. Qala yüksək divarları, müdafiə xəndəkləri və güclü qala qapıları ilə təchiz edilib. Divarların qalınlığı və möhkəmliyi, o dövrün döyüş texnologiyalarına qarşı dayanıqlı olması baxımından çox effektli olub.

Qalanın yerləşdiyi coğrafi ərazi müharibələr zamanı bölgənin müdafiəsi üçün mühüm əhəmiyyət kəsb edib. Qalanın müdafiə gücü ona təkcə döyüşlərdə üstünlük qazandırmaqla kifayətlənməyib, həm də ətraf kəndlərin və şəhərlərin təhlükəsizliyini təmin edib.

Əsgəran qalasının tikintisində istifadə edilən materiallar və memarlıq üslubu, dövrünün mədəni və texnoloji inkişafından xəbər verir. Qalanın strateji mövqeyi onu dəfələrlə qarşı tərəflərin hücumlarından qorumağa imkan vermişdir. Qala, həmçinin Azərbaycanın ən böyük və mühüm qalalarından biri olaraq, bu ərazilərdə baş verən bir çox müharibə və döyüşlərə şahidlik edib.

El arasında "Əsgəran qalası" adı ilə tanınan bu sədd XVIII əsrdə (bəzi mənbələr XII-XIII əsrlərə aid olduğunu bildirir) Qarabağ xanlığının şərq sərhədində tikilib. Dərbənd səddi Şirvanın şimal qapısı idisə, Əsgəran səddi Qarabağ xanlığının şərq qapısı hesab olunub.

Qarqarçayın hər iki sahilində tikilən Əsgəran qalası düşmənin Şuşaya düzənlikdən baş verə biləcək hücumlarının qarşısını almaq üçün nəzərdə tutulub. Qalanın çayın sahilində yerləşən hissəsinin uzunluğu 250 metrə çatan ikiqat divardan ibarətdir. Çay daşı ilə hörülən qala divarının eni 2, hündürlüyü isə bəzi yerlərdə 9 metrə çatır. Əsgəran qalası çox əlverişli mövqeyə malik olub. Qarqarçayın sahilləri çox hündür və sıldırımlı olduğundan düşmən bu qalanı ələ keçirmədən Şuşaya doğru irəliləyə bilməzdi. XIX əsrdə yaşamış görkəmli Azərbaycan tarixçisi, dövlət xadimi və Qarabağ xanlığının baş vəziri olmuş Mirzə Camal Qarabaği qala haqqında belə yazıb: "Müharibə zamanı bu qalalarda azacıq piyada qoşun olsa, düşmən oradan keçib Şuşa qalasına gedə bilməzdi".

Əsgəran qalasının tikilmə tarixi və onu tikdirənin adı müxtəlif mənbələrdə müxtəlif cür yazılıb. Tarixçilərin bir çoxu qalanın tikilməsini Pənahəli xanın, bəziləri Mehrəli xanın, digərləri isə İbrahim xanın adı ilə bağlayırlar.

Qalanın adı Əsgəran adlı yerlə bağlı olub Azərbaycan dilindəki əski (köhnə, qədim) və Aran toponimindən ibarət olub - köhnə Aran, qədim Aran mənalarını daşıyır.

Əsgəran qalası Şuşanın təxminən 24, Xocalının 5 kilometrliyində və Ağdam şəhərinin 12 km cənubunda Qarqarçayın sağ və sol sahillərində, dağ döşündə tikilib. Burada dağlar eni təqribən 500 metrə çatan çay vadisinə və qalanın divarları ilə əhatələnən böyük olmayan dərəyə qədər uzanır.

Qalanın sağ sahil (şərq tərəfi) istehkamı bürclərlə möhkəmləndirilib, ikiqat daş divarlarından ibarətdir. Bütün bürclər ikimərtəbəli olub, biri digəri ilə ikimərtəbəli qala dəhlizləri ilə birləşdirilib. Relyefə uyğun olaraq dəhliz bir bürcün birinci mərtəbəsini digər bürcün ikinci mərtəbəsi ilə birləşdirir. Dağ keçidindən müdafiə olunan kənar şərq bürc xüsusi formalı otaqların yaratdığı kompleksdən ibarətdir. Qalanın sol sahil hissəsi (qərb tərəfi) isə bir müdafiə həlqəsində birləşən düzbucaqlı trapesiya şəkilli istehkamlardan ibarətdir. Burada relyef nəzərə alınmaqla inşa olunan qala divarları altı bürclə möhkəmləndirilib. Qarqarçaydan başlayaraq dağa doğru uzanan qala divarları qala həyətini əmələ gətirib.



Yuxarı qala həyətinin hər küncündə bir bürc yerləşməklə demək olar ki, kvadrat formalı qapalı istehkamdır. Bu həyətlə aşağı həyəti ayıran köndələn divarda daxili, üstü tağlı darvazalar var. Aşağı həyət şərq tərəfdən açılır, belə ki, hər iki divar yalnız çaya çatır. İstehkamın sol sahildəki altı bürcün hər biri mərkəzində kiçik aşınma olan tağtavanla iki mərtəbəyə ayrılıb. Üçüncü mərtəbə yalnız mazğallara qədər mühafizə olunub. Yuxarıdakı kvadrat biçimli istehkam, ehtimal ki, müdafiə sistemində xüsusi əhəmiyyət kəsb edib və elə inşa olunub ki, hətta qalanın aşağı hissəsi düşmənin əlinə keçsə belə, burada mübarizəni davam etdirmək mümkün olsun. Qalanın divarları üz hissəsi yaxşı işlənmiş çay daşlarından tikilib. Horizontal sıralı döşəmə daşlar tikintini daha da möhkəmləndirib.

Ermənistanın torpaqlarımızı işğalı nəticəsində bir çox abidələr kimi Əsgəran qalası da düşmənin nəzarətinə keçmişdi. Qala erməni işğalında olmaqla yanaşı, həm də erməniləşdirilməyə məruz qalıb. Belə ki, Şaqen Makiçoviç Mkrtçyanın (əsasən Qarabağ ərazisində tarixi-memarlıq abidələrini, o cümlədən Əsgəran qalasını və Şuşadakı tikililəri erməniləşdirməyə, erməni abidələri kimi təqdim etməyə çalışan erməni ideoloji təbliğatçısı) "Историко - архитектурные памятники Нагорного Карабаха" (Dağlıq Qarabağın tarixi - memarlıq abidələri) adlı kitabında bölgədəki digər abidələrlə yanaşı Əsgəran qalası da mənimsənilərək tarixi tamamilə təhrif olunub. Kitabda qalanın adı Mayraberd-Əsgəran kimi göstərilib. Qalanın adının necə yarandığını açıqlayan müəllif onun orta əsr erməni kəndi olan Mayraberd kəndi yaxınlığında salındığından kəndin adı ilə Mayraberd, qoşunların dayanacaq yeri olduğu üçün isə Əsgəran adlandırıldığını bildirib. Qalanın adına gəldikdə, məlumdur ki, Azərbaycanın bu bölgəsində nə orta əsrlərdə, nə də sonra bu adda yer adına, nə də toponimikasında bu cür mənşəli sözə rast gəlinməyib.

2023-cü il sentyabrın 19-20-də rəşadətli Azərbaycan Ordusunun həyata keçirdiyi antiterror əməliyyatından sonra Əsgəran qalası düşməndən azad edildi. Bu gün Əsgəran qalası həm Azərbaycan tarixini öyrənmək istəyənlər üçün bir mədəni irs abidəsi, həm də turizm baxımından əhəmiyyətli bir kompleks olaraq azaddır. Qala xalqımızın tarixi və mədəni zənginliyini nümayiş etdirən mühüm bir abidə olaraq, dövlətimiz tərəfindən qorunur və ziyarətçilərə açıqdır. Əsgəran qalası yalnız bir hərbi-istehkam qalası deyil, həm də Azərbaycanın tarixi və mədəni irsinin bir hissəsidir. Qala divarlarının və digər tarixi tikililərin günümüzə qədər qorunub saxlanılması, həmçinin, gələcək nəsillərə bu tarixi irsin çatdırılması üçün çox vacibdir.

**"Azərbaycan Ordusu"**

# Şəhidlərimizin xatirəsi ehtiramla yad edilib

Vətən uğrunda şəhidlik zirvəsinə yüksələn Rüstəmov Vilayət Məhəmməd oğlu və Həsənov Nurlan Nadir oğlunun əziz xatirələrinə həsr olunmuş anım tədbirləri keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində keçirilən tədbirlərdə Müdafiə Nazirliyinin əməkdaşları, ictimaiyyət nümayəndələri, şəhidlərin ailə üzvləri, yaxınları və döyüş yoldaşları iştirak ediblər.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin, eləcə də Vətən uğrunda canından keçmiş şəhidlərimizin xatirələri bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.





Tədbirlərin iştirakçılarına şəhidlərimizin nümunəvi xidmətləri və döyüş yolları haqqında ətraflı məlumat verilib.

Anım mərasimlərində çıxış edənlər şəhidlərimizin döyüşlərdə göstərdikləri qəhrəmanlıq və şücaətlərindən söz açıblar.

Sonda şəhidlərin ailə üzvləri və yaxınları göstərilən diqqət və qayğıya, həmçinin şəhidlərimizin xatirələrinin daim uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, həmçinin Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.







## Səməd Vurğunun yaradıcılığında azadlıq və müstəqillik çalarları



Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Səməd Vurğun yaradıcılığı ilə xalqın milli ruhunu, azadlıq duyğularını və Vətən sevgisini böyük ustalıqla ifadə etmişdir. Onun əsərlərində insanın mənəvi azadlığı, xalqın istiqlal arzuları və doğma torpağa bağlılıq əsas mövzulardan biri kimi diqqəti cəlb edir. Şair yalnız dövrünün hadisələrini qələmə almamış, həm də xalqın daxili hisslərini, gələcəyə olan ümidlərini poetik dillə əks etdirmişdir. Buna görə də Səməd Vurğunun yaradıcılığı Azərbaycan ədəbiyyatında azadlıq və müstəqillik ideyalarının bədii ifadəsi baxımından xüsusi əhəmiyyət daşıyır.

Səməd Vurğunun şeirlərində Vətən anlayışı müqəddəs bir dəyər kimi təqdim olunur. O, Azərbaycan torpağını təkcə yaşadığı məkan deyil, həm də xalqın tarixi, mənəviyyatı və kimliyi kimi təsvir edir. Şairin "Azərbaycan" şeiri Vətən sevgisinin ən parlaq nümunələrindən biridir. Bu əsərdə Azərbaycanın təbiəti, insanları və zəngin mədəniyyəti tərənnüm olunur. Şair Vətənini sonsuz məhəbbətlə sevərək, onu azad və qüdrətli görmək arzusunda ifadə edir. Şeirdə hiss olunan qürur və coşqu xalqın milli birlik ruhunu gücləndirir.

Səməd Vurğun yaradıcılığında azadlıq ideyası yalnız siyasi mənada deyil, həm də mənəvi anlamda təqdim edilir. Şair insanın vicdan azadlığını, ədalətə və həqiqətə bağlılığını yüksək qiymətləndirirdi. Onun qəhrəmanları haqsızlıqla mübarizə aparan və ləyaqətini qoruyan insanlardır. Bu xüsusiyyətlər onun dram əsərlərində xüsusilə daha aydın görünür. "Vaqif" dramında Molla Pənah Vaqif obrazı xalqına bağlı, ağıllı və azad düşüncəli şəxsiyyət kimi təqdim olunur. Vaqifin mübarizəsi təkcə öz taleyi üçün deyil, həm də xalqın gələcəyi naminə aparılan mübarizədir. Əsərdə xalqın birliyi, torpağın qorunması və mənəvi azadlıq ideyaları ön plana çəkilir.

Şairin Böyük Vətən müharibəsi illərində yazdığı əsərlərdə də azadlıq motivləri xüsusi yer tutur. O dövrdə Səməd Vurğun xalqı qəhrəmanlığa, Vətəni qorumağa səsləyirdi. Onun şeirlərində düşmənə qarşı nifrət, Vətən uğrunda mübarizə və qələbəyə inam güclü şəkildə hiss olunurdu. Şair xalqın azad yaşamaq haqqını müdafiə edir və insanları birlik ətrafında birləşməyə çağırırdı. Bu əsərlər xalqın ruh yüksəkliyinin artmasına və vətənpərvərlik hisslərinin güclənməsinə böyük təsir göstərmişdir.

Səməd Vurğun yaradıcılığında müstəqillik çalarları xalqın milli dəyərlərinə bağlılıqda da özünü göstərir. Şair ana dilinə, milli adət-ənənələrə və folklora böyük önəm verirdi. O hesab edirdi ki, xalqın dili və mədəniyyəti onun mənəvi azadlığının əsas dayaqlarıdır. Buna görə də, əsərlərində sadə və axıcı xalq dilindən istifadə etmiş, milli ruhu qorumağa çalışmışdır. Şairin yaradıcılığı insanlarda milli kimlik duyğusunu gücləndirərək, onları öz köklərinə daha sıx bağlayırdı.

Səməd Vurğun poeziyası bu gün də aktuallığını qoruyur. Onun əsərlərində ifadə olunan azadlıq, Vətən sevgisi və müstəqillik ideyaları müasir gənclərin vətənpərvər ruhda tərbiyəsində mühüm rol oynayır. Şairin yaradıcılığı oxuculara göstərir ki, azadlıq hər bir xalqın ən böyük sərvətidir və onu qorumağa üçün birlik, mərdlik və Vətən sevgisi lazımdır.

Nəticə olaraq demək olar ki, Səməd Vurğunun yaradıcılığı Azərbaycan ədəbiyyatında azadlıq və müstəqillik ideyalarının ən parlaq nümunələrindən biridir. Onun əsərləri xalqın milli ruhunu yaşatmış, insanlarda Vətənə bağlılıq hissini gücləndirmiş və gələcək nəsillərə azadlıq sevgisi aşılamışdır. Buna görə də, Səməd Vurğunun yaradıcılığı hər zaman böyük dəyər daşıyacaq və Azərbaycan xalqının mənəvi xəzinəsində xüsusi yer tutacaqdır.

**Gülsədə AMAN**
**Cəmşid Naxçıvanski adına Hərbi Lisey**

## Günnüt əməliyyatı - Zəfər yürüşünün sədası

Əlahiddə Ümumqoşun Ordunun həyata keçirdiyi uğurlu Günnüt əməliyyatı müasir hərb tariximizin parlaq və strateji baxımdan ən mühüm səhifələrindən biridir. 2018-ci il mayın 20-dən 27-dək davam edən bu qətiyyətli əməliyyat nəticəsində Şərur rayonunun Günnüt kəndi və ətrafdakı mühüm strateji yüksəkliklər, o cümlədən Qızılqaya, Mehridağ və Xunut dağı tamamilə Əlahiddə Ümumqoşun Ordunun nəzarəti altına keçdi. Bu tarixi nailiyyət minlərlə hektar torpağımızın azad olunması, dövlət sərhədi boyu ən əlverişli mövqelərin və İrəvan-Gorus-Laçın magistral yolunun vizual nəzarətə götürülməsi ilə nəticələndi. Hərbi-siyasi baxımdan bu əməliyyat Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etmək qüdrətini bütün dünyaya nümayiş etdirdi.




Qeyd edək ki, Günnüt kəndi və onun ətrafındakı strateji yüksəkliklər 1992-ci ilin mayında erməni hərbi birləşmələrinin Naxçıvan Muxtar Respublikasının sərhədlərinə xain hücumları nəticəsində işğal altına düşmüşdü. Həmin dövrdə Ermənistan tərəfi kəndin coğrafi mövqeyindən istifadə edərək Şərur rayonunun digər sərhəd məntəqələrini davamlı atəş altında saxlayırdı. İşğal zamanı Günnüt kəndi erməni vandalları tərəfindən tamamilə yandırılmış, dinc əhali öz doğma yurdundan didərgin düşmüş və kənd xarabalığa çevrilmişdi. Uzun illər boyu düşmən işğalında qalan bu ərazidəki qəbiristanlıqlar belə dağıdılmış, yerli sakinlərin öz yaxınlarının məzarlarını ziyarət etmək imkanı əllərindən alınmışdı. 2018-ci ilin may qələbəsi məhz bu 26 illik həsrətə və ədalətsizliyə son qoydu.

Günnüt əməliyyatının ilk günündə düşmən təxribatının qarşısını alarkən döyüş tapşırığını mərdliklə yerinə yetirən hərbi qulluqçumuz Adil Əli oğlu Tatarov şəhidlik zirvəsinə ucaldı. 28 yanvar 1999-cu ildə Ağstafa rayonunun Qıraq Kəsəmən kəndində doğulan və beş övladın ən kiçiyi olan Adil, 2017-ci ilin aprelində müddətli həqiqi hərbi xidmətə çağırılmışdı. Naxçıvanda, Əlahiddə Ümumqoşun Ordunun sıralarında xidmət edən və xidmətinin bir ilini yenicə tamamlayan əsgərimiz göstərdiyi rəşadətə görə ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə "Vətən uğrunda", müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə "Şücaətə görə" medalları ilə təltif olunub.

"Biz çox önəmli strateji yüksəklikləri Ermənistan ordusundan təmizlədik, o yüksəklikləri əldə etdik. Bu yüksəkliklər imkan verdi ki, biz artıq strateji kommunikasiyalara tam nəzarət edirik və Ermənistandan Dağlıq Qarabağa gedən yola da nəzarət edirik", - deyə 2021-ci il mayın 10-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Azərbaycan Televiziyasına müsahibəsində Prezident İlham Əliyev bildirdi ki, İkinci Qarabağ müharibəsində bu yola nəzarət imkanlarımız bizə bir çox informasiyanın əldə edilməsində kömək göstərdi.

Günnüt əməliyyatı sadəcə ordumuzun bir uğuru deyil, xalqımızın böyük Zəfər yürüşünün təməl daşlarından biridir. Belə ki, xalqımızın müqəddəs torpaq sevgisini və sarsılmaz birliyini təcəssüm etdirən bu mübarizə yolu 2016-cı ilin tarixi Aprel döyüşlərindən başlayaraq, 2018-ci ilin Günnüt zəfəri, 2020-ci ilin Tovuz döyüşləri və eyni ilin payızında cəmi 44 günə dastana çevrilən İkinci Qarabağ müharibəsi, nəhayət, 2023-cü ilin 19-20 sentyabr tarixlərində ərazi bütövlüyü və suverenliyimizin tam bərpa edilməsi ilə başa çatan antiterror əməliyyatı ilə tamamlanmışdır. Bir-birini xronoloji və məntiqi olaraq tamamlayan bu şanlı hərbi əməliyyatlar şəhidlərimizin canı, hərbi qulluqçularımızın şücaəti ilə yazılmış bütöv bir qəhrəmanlıq dastanıdır.

**Bəxtiyar ƏLİYEV**
**"Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin mətbuat katibi**

## Görkəmli şəxsiyyətlər

# Şuşadan Çitayadək uzanan qəhrəmanlıq yolu



(Əvvəli 1-ci səhifədə)

Həmin ilin 12 aprel tarixində onun xidmət etdiyi alay Çoloki çayını keçib və növbəti gün o, alayı ilə birlikdə Muxa döyüşündə iştirak edib. 29 apreldə o, Xutsubanini ələ keçirmək üçün edilən hücuma qatılıb, 16 may tarixində Sameba təpələrinin ələ keçirilməsi uğrunda döyüşüb və Zeniti kəndi yaxınlığındakı döyüşdə də iştirak edib. 29 may tarixində Tsixisdziri istehkamlarına artilleriya batareyalarının yerləşdirilməsinə rəhbərlik edib.

18 yanvar 1878-ci ildə o, Tsixisdziriyə təşkil edilən ikinci hücumda da iştirak edib, bu döyüşdə sol əlindən yaralanıb. Bir qədər sonra 4-cü dərəcəli "Müqəddəs Anna" ordeni ilə təltif edilib. Orden "Cəsurluğa görə" yazısı ilə birlikdə 10 fevral 1878-ci ildə təqdim edilib. 25 Aprel 1878-ci ildə isə Əliqulu Mirzəyə "poruçik" rütbəsi verilib.

Əliqulu Mirzə əvvəlcə Qafqaz ordusunda xidmətə başlasa da, sonradan Severskaya Süvari Alayına köçürülüb. Bu təyinat 29 iyun 1878-ci ildə edilib. 1 iyul 1878-ci ildə bu barədə "Russkiy invalid" qəzetinin 146-cı sayında da məlumat verilib.

O, 10 avqust 1885-ci ildə atış yarışmasına qatılıb və qalib gələrək 74 rubl pulla mükafatlandırılıb. 6 mart 1886-cı ildə hazırlanan "Qafqaz Hərbi Dairəsinin qoşunlarında xidmət edən şahzadələrinin siyahısı və şəhadətnaməsi" sənədinə əsasən, Əliqulu Mirzə Qacar yüksək əxlaqi dəyərlərə sahib, alicənab, xidmətində peşəkar şəxs kimi dəyərləndirilib.

Əliqulu Mirzə Qacar 1886-cı ilin oktyabrından 1889-cu ilin yanvarınadək 4-cü və 6-cı eskadrilyanın komandiri vəzifəsini icra edib.

24 fevral 1887-ci ildə "ştabs-rotmistr" rütbəsinə layiq görülüb. 23 dekabr 1887-ci ildə Qafqaz Ehtiyat Süvari Alayının 3-cü departamentinə, 11 sentyabr 1888-ci ildə xidməti alaya göndərilib.

1 sentyabr 1889-cu ildə alayın atıcı heyətinin komandiri təyin edilib və 27 yanvar 1890-cı ildə alayın təlim komandasının komandiri olub.

4 noyabr 1890-cı ildə alayın zabitlər cəmiyyəti məhkəməsinin namizədliyinə üzv seçilib və 18 noyabr 1890-cı ildə yenidən təlim komandasının komandiri təyin edilib.

30 avqust 1891-ci ildə o, yenidən bir illiyə Qafqaz Ehtiyat Süvari Alayının 3-cü departamentinə göndərilib və eyni gündə də təlim komandasının komandiri təyin edilib.

12 noyabr 1892-ci ildə alayın zabitlər cəmiyyəti məhkəməsinin üzvü seçilib. 1893-cü il 10 iyundan 5 sentyabra qədər 3-cü eskadrilyaya komandirlik edib. 1893-cü ilin 26 sentyabr tarixindən Süvari Zabitləri Məktəbinə göndərilib. O, burada olduğu zaman 15 mart 1895-ci ildə "rotmistr" rütbəsinə yüksəlib. 15 avqust 1895-ci ildə eskadron və istehkam komandirləri şöbəsində "Zabit Süvari Məktəbi kursu"nu "əla" qiymətlə bitirib və 1 sentyabr 1895-ci ildə gəldiyi alaya geri göndərilib.

18 sentyabr 1896-cı ildə Oryol şəhərində yerləşən 51-ci Çerniqov Süvari Alayına təyinat alıb. 20 noyabr 1896-cı ildən 20 may 1897-ci ilə qədər polkun zabit məhkəməsinin üzvü olaraq da çalışıb.

1898-ci ilin 3 iyul tarixindən 3 sentyabrına qədər Əliqulu Mirzə Qafqaz Mineral Suları (Qafqazskiye Mineralnıye vodı) bölgəsinə göndərilib. 6 oktyabr 1898-ci ildən 7 yanvar 1899-cu ilə qədər zabit məhkəməsinin üzvü olaraq çalışıb. O, 1899-cu ilin 13 mayından Riqa-Oryol dəmiryolunun Bejitsa stansiyasına göndərilib. 1899-cu ilin 3 sentyabrından 7 dekabrına qədər, 1901-ci ilin 20 avqustundan 10 aprelinə qədər, 1902-ci ilin 1 aprelindən 1 noyabrına qədər alay məhkəməsinin üzvü olub.

Çerniqov alayının Oryol şəhərindəki bölməsində xidmət edərkən Əliqulu Mirzə tez-tez alayın atıcılıq və süvarilik yarışmalarında qalib gəlib və müxtəlif mükafatlarla mükafatlandırılıb.

1903-cü ildə orada "podpolkovnik" rütbəsinə yüksəlib. Bundan sonra Yeletsdə yerləşən 51-ci Nejinski Alayına təyinat alıb.



2 mart 1903-cü ildə Əliqulu Mirzə xidmət etdiyi alayı təhvil verib və 14 iyun 1903-cü ildə ikinci komandan olaraq 52-ci Nejinski Süvari Alayına təyin edilib. 16 iyun 1903-cü ildə o, yeni xidmət yerinə gəlib və 25 iyun 1903-cü ildə alayın döyüşən birlikləri üzrə alay komandirinin köməkçisi təyin edilib. İmperatorun əmri ilə 26 iyul 1903-cü ildə podpolkovnik Əliqulu Mirzə Qacar 51-ci Çerniqov Draqon Alayınından 52-ci Çerniqov Draqon Alayına təyinat alıb.

Şahzadə Əliqulu Mirzə 1904-1905-ci illəri əhatə edən Rus-Yapon müharibəsində də iştirak edib.

**Əliqulu Mirzə Qacarın cəbhəyə yola düşməzdən əvvəl ailəsi ilə çəkilən şəkli. Oryol, 1905.**



Əliqulu Mirzənin oğlu Şəmsəddin Mirzə öz xatirələrində atasının ürək xəstəliyinə görə müalicə aldığını bildirib. Həyat yoldaşının ürək xəstəliyinə görə təqaüdə çıxmasını istədiyi məktubuna Əliqulu Mirzə o zaman bu cavabı yazıb: "İndi belə söhbətlərin yeri deyil, xəstə adam çoxdan pensiyaya çıxmalı idi. İndi geri çəkilsəm, deyəcəklər ki, döyüşə getməkdən qorxdum... Mənim yerimə evdə belə bir kişi (on yaşlı oğlunu nəzərdə tutur) qalır".

Yaponiya ilə müharibədə iştirakı Əliqulu Mirzənin son hərbi xidməti olub. O, Port-Arturun müdafiəsi zamanı ağır yaralanıb və 1905-ci ildə Çitadakı hərbi xəstəxanada vəfat edib. Onun nəşi Çitadakı xəstəxanadan Qafqaza aparılıb. Bu hadisə ilə əlaqədar 1905-ci il 8 fevral tarixində "Tərcüman" qəzetində belə yazılıb: "Qızıl Xaç Cəmiyyətinin himayədarı Əlahəzrət İmperator Mariya Fedorovna mərhum podpolkovnik Şahzadə Əliqulu Mirzə Qacarın cənazəsinin Qızıl Xaç Cəmiyyətinin vəsaiti hesabına Qafqaza Yevlax stansiyasına çatdırılmasını zəruri hesab etmişdir".

Əliqulu Mirzə Bərdə şəhərindəki İmamzadə qəbiristanlığındakı məqbərədə, atası Bəhmən Mirzə Qacarın məzarının yanında dəfn olunub.

Əliqulu Mirzə Qacarın 1886-cı ildəki xidmət kitabçasında 1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsinin xatirəsinə "İgidliyə görə" yazısı olan 4-cü dərəcəli "Müqəddəs Anna" ordeni və bürünc medalı olduğu qeyd edilib. Bundan başqa, dövrümüzə qədər gəlib çatan fotoşəkillərdən aydın olur ki, Əliqulu Mirzənin 2-ci və 3-cü dərəcəli "Müqəddəs Stanislav" ordeni, 3-cü dərəcəli "Müqəddəs Anna" ordeni, 4-cü dərəcəli "Müqəddəs Vladimir" ordeni, İranın "Şiri-Xurşid" ordeni və Buxaranın "Qızıl Günəş" ordeni də olub.

Əliqulu Mirzənin həyat yoldaşı olan Sitarə Bəyim (Sara Bəyim İsmayılova) məşhur tacir Ağaəli Ələsgər İsmayılovun qızı olub. Avropa təhsili alan Sitarə Bəyim Azərbaycan, fransız, rus və fars dillərini mükəmməl bilib, eyni zamanda, bu dillərin tədrisi ilə də məşğul olub. Cütlüyün Şəmsəddin Mirzə və Üveys Mirzə adlı oğlu (digər bir oğlu Murad Mirzə 5 yaşında və qızları İzzət Xanım 7 yaşında ikən vəfat edib) olub.

Əliqulu Mirzə peşəkar hərbi fəaliyyət ilə yanaşı, həm də həvəskar fotoqraf olub. O, ciddi formada müxtəlif incəsənət sahələri ilə məşğul olub, bunlardan birinci yeri isə fotoqrafiya tutub. Əliqulu Mirzənin oğlu Şəmsəddin Mirzənin öz xatirələrində yazdığına görə, bir çox müəlliflər şahzadəni Rusiya imperiyasında ilk azərbaycanlı fotoqraflardan biri kimi qəbul edirmişlər. Əliqulu Mirzə Qacar Tiflis, Bakı və Sankt-Peterburq arxivlərində saxlanılan bir sıra fotoşəkillərin müəllifidir.

**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycanın sərbəst güləşçiləri Avropa çempionatının son günündə 5 medal qazanıblar







Bolqarıstanın Samokov şəhərində keçirilən güləş üzrə U15 Avropa çempionatına yekun vurulub.

Sonuncu yarış günündə Azərbaycanın 5 sərbəst güləşçisi fəxri kürsüyə qalxıb. Finaladək bütün görüşləri vaxtından əvvəl qələbə ilə başa vuran Yusif Abdullayev (38 kiloqram) son qarşılaşmada da ənənəsinə sadiq qalıb. Gürcüstan təmsilçisi Rezi Yobidzeyə tam üstünlüklə (10:0) qalib gələn həmyerlimiz Avropa çempionu olub.

Elman İsmayılov (41 kiloqram) finalda bolqarıstanlı Simyon Velikova 4:15 hesabı ilə uduzub və gümüş medalı boynundan asıb.

Məhəmməd Kərimov (44 kiloqram) belaruslu Aleksandr Hamova tam üstünlüklə (16:6) qalib gələrək bürünc medal qazanıb.

Adəm Quliyev (52 kiloqram) finalda rusiyalı Badruddin Maqomedova 7:9 hesabı ilə məğlub olub və yarışı ikinci pillədə başa vurub.

Yusif Hüseynov (62 kiloqram) isə bürünc medal uğrunda görüşdə rusiyalı Zaur Najmudinovu üstələyib - 5:0.

Beləliklə, sərbəst güləş millimiz qitə birinciliyində 6 medal əldə edib. Xatırladaq ki, ötən gün Elvin Nəcəfzadə (85 kiloqram) fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

## Azərbaycanın qadın karateçisi Avropa çempionu olub



Azərbaycanın qadın karateçisi Mədinə Sadıqova Almaniyanın Frankfurt şəhərində keçirilən böyüklər arasında Avropa çempionatında qızıl medal qazanıb.

55 kiloqram çəki dərəcəsində çıxış edən idmançı bütün rəqiblərini üstələyərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Bununla da, Mədinə Sadıqova Azərbaycanın karate tarixində böyüklər arasında Avropa çempionu olan ilk azərbaycanlı qadın karateçi kimi tarixə düşüb.

**AZƏRTAC-ın materialları əsasında**

2-ci dərəcəli kapitan Əliyev Emin Fərman oğluna verilmiş MN № 0049876 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefon**
Müdafiə Nazirliyinin
Hərbi Nəşriyyatı üzrə növbətçi:
(012) 404-76-22

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
2 saylı Xəzinədarlıq
Kod: 200189
VÖEN: 1500444791

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
kapitan
Günay TAĞIYEVA

Lisenziya № 361
Sifariş № 549
Nüsxə 3653